# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 203** **Bakı şəhəri, 5 aprel 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 noyabr tarixli 416 nömrəli Qərarı ilə təsdiq edilmiş "Geoloji Kəşfiyyat Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"ndə və 2022-ci il 29 noyabr tarixli 425 nömrəli Qərarı ilə təsdiq edilmiş "Geodeziya və Kartoqrafiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 noyabr tarixli 416 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1353 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 mart tarixli 116 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Geoloji Kəşfiyyat Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"nin 5.5-ci bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin sərəncamında qalan vəsaitdən Nazirliyin əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 noyabr tarixli 425 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1361 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 mart tarixli 116 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Geodeziya və Kartoqrafiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin sərəncamında qalan vəsaitdən Nazirliyin əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2024.- 7 aprel, № 72.- S.6.